# Turistlərin intensiv axını müşahidə olunur




Respublikamızın təbiəti füsunkar mənzərəsi ilə turistlərin diqqətini cəlb edir. Qəbələ də bu dilbər guşələrimizdən biridir. Son illərdə rayonda turizmin inkişafı üçün önəmli addımlar atılıb, müasir infrastruktur yaradılıb.

Rayonda turizm mövsümü ilin bütün fəsillərini əhatə edir və bütün ilboyu turistlərin bu diyara intensiv axını müşahidə olunur.

Qəbələdə bir gündə 3 minədək qonağı yüksək səviyyədə qəbul etmək imkanına malik 5, 4 və 3 ulduzlu 20 otel fəaliyyət göstərir.

Rayonda təbiət qoynunda rahat şəkildə ailəvi istirahət etmək üçün, həmçinin kiçik otellər, bir neçə istirahət və əyləncə mərkəzi, turist bazaları da var.

Ümumilikdə isə iri-xırdalı 100-dən artıq turizm obyekti turistlərin xidmətindədir. Gün ərzində bu obyektlərdə qonaqlara milli, türk və Avropa yeməkləri-



nin də daxil olduğu restoran xidmətləri göstərilir. Qəbələ eləcə də özünəməxsus dadlı mətbəxi ilə də diqqəti cəlb edir. Müxtəlif növ paxlavaları, qozla hazırlanan halvanı burdan başqa heç yerdə görmək olmur. Döşəməli plov və daşarası kabab isə Qəbələ mətbəxinin şahı sayılır.

Qəbələnin sıx meşələri, sıldırım qayaları, səsli-küylü çayları, şəlalələri, göz oxşayan Nohur gölü turistlərin daha çox maraq göstərdiyi məkanlardandır.

**"Qəbələ"**

# Xatirə turniri

Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin 2019-cu il üçün hazırlıq planına



əsasən 09-10 yanvar tarixlərində "20 Yanvar Ümumxalq Hüzn Günü"nə həsr edilmiş şahmat üzrə xatirə turniri keçirilmişdir. Turnir Azərbaycan Respublikasının Şahmat Federasiyası tərəfindən müəyyənləşdirilmiş qaydalara uyğun olaraq təşkil edilmişdir.

Turnirə start verilmədən öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş və daha sonra 20 Yanvar hadisəsi zamanı şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Turnirin gedişində elan olunan fasilələrdə qanlı 20 Yanvar hadisəsi zamanı törədilmiş vəhşiliklər, xalqın sarsılmaz birliyi barədə tarixi faktlar və məlumatlar bir daha iştirakçıların diqqətinə çatdırılmışdır.

Birincilik uğrunda aparılan mübarizənin son nəticələrinə əsasən I yeri mərkəzin ərazi orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Məqbul Məmmədov, II yeri xilasetmə hissəsinin xilasedicisi, daxili xidmət baş çavuşu Dəyanət Məmmədov, III yeri isə mülki müdafiəyə hazırlıq şöbəsinin rəisi, mayor Eldəniz Mehdiyev qazanmışdır.

Qaliblər diplom və hədiyyələrlə təltif edilmişlər.

**FHN Şimal-qərb Regional Mərkəzinin maarifləndirmə sektoru.**

# Qəbələdə milli komandanın təlim-məşqləri

Qəbələdə milli komandamızın böyüklərdən ibarət karateçilərinin təlim-məşqləri keçirilir.

Baş məşqçi Bahəddin Kandaz, böyük məşqçilər Şahin Xudaverdiyev, Qurban Tağıyev (kumite) və Vahid Ayvazovun (kata üzrə baş məşqçi) rəhbərliyi ilə hazırlıqlara milli komandanın əsas və əvəzedici heyəti qatılıb. Mövsümün ilk təlim-məşqləri yanvarın 21-də başa çatacaq.



Karateçilərimiz ayın 23-də Fransaya, Karate1 Premyer Liqasına yola düşəcəklər. İlboyu milli komandamızı Paris, Dubay, Rabat, Şanxay, Tokio, Moskva və Madriddə Premyer Liqa yarışları, Zalsburq, İstanbul, Monreal və Santyaqoda A seriyası turnirləri, həmçinin martın sonunda İspaniyanın Quadalaxara şəhərində 54-cü Avropa çempionatı gözləyir.

Karate1 seriyasından olan Premyer Liqa və A seriyası turnirləri daxil olmaqla, bu rəsmi yarışlar idmançılara dünya reytinqindən əlavə Tokio Yay Olimpiya Oyunlarına lisenziya verən reytinq xalları qazandırır.

**"Qəbələ"**

# Hərbi vətənpərvərlik işi günümüzün ən aktual mövzusudur

***Ölkəmizdə hərbi-vətənpərvərlik tərbiyəsi diqqət mərkəzindədir. Vətənə məhəbbət, öz xalqına hörmət, ölkəsinə xor baxan düşmənlərinə nifrət hisslərini aşılayan, doğma yurdun çiçəklənməsi uğrunda fəal mübarizəyə hədəf götürən hərbi-vətənpərvərlik tərbiyəsi hər bir ölkə vətəndaşının Vətəninin müdafiəsinə şəxsi hazırlığı ilə müəyyən edilir. Bunun üçün həmişə hərbi işə, düşmənə qarşı silahlı mübarizəyə yiyələnmək əsas vəzifə hesab olunur.***

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində də fəaliyyətə başladığı 2009-cu ildən bu istiqamətdə əhəmiyyətli işlər həyata keçirilir, müntəzəm olaraq vətənpərvərlik mövzusunda silsilə tədbirlər təşkil olunur. Belə tədbirlərdən biri də 2018-ci il dekabrın 26-da keçirilib. Tədbirdə həmçinin yanvar çağırışı ilə hərbi xidmətə yollanacaq iki şagirdimizin yola salınma mərasimi də qeyd edilib.

Tədbiri açan mərkəzin direktoru Eyvaz Kazımov gənclərdə vətənpərvərlik hisslərinin yüksək olmasının vacibliyini qeyd edərək, yaşadığımız dövrün





gənc nəslin kiçik yaşlarından hərbi ruhda tərbiyə olunmasını tələb etdiyini bildirib. Qeyd olunub ki, yeniyetmələrin psixoloji və mənəvi baxımdan hərbi həyata hazırlanması üçün ümumtəhsil məktəbləri, peşə təhsili mərkəzləri və digər tərbiyə funksiyasını yerinə yetirən müəssisələrdə mütəmadi olaraq gənclərlə iş aparılmalıdır.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin, ölkədə gənclərlə bağlı həyata keçirilən islahatların fövqündə milli mənlik şüurunun və vətənpərvərlik tərbiyəsinin prioritet olduğu və Prezident İlham Əliyev tərəfindən bu siyasətin uğurla davam etdirilməsinin gənclərin vətənpərvərlik hissinin formalaşması istiqamətində əvəzsiz rol oynadığı vurğulanıb.

Mərkəzin direktoru diqqətə çatdırıb ki, hərbi-vətənpərvərlik hissi ülvi hissdir. Bu ülvi hiss insanın öz doğma Vətəninə hədsiz məhəbbət göstərməsində, onun müvəffəqiyyətlərini gördükdə ürəkdən sevinməsində, düşmənlərinə dərin nifrət bəsləməsində, hər qarış torpağın göz bəbəyi kimi qorunmasında, döyüş bacarığına və vərdişlərinə yiyələnməsində ifadə olunur. Bildirilib ki, hərbi-vətənpərvərlik hissi hər bir kəsin doğma yerlərə və adamlara bağlılığından, onları xarici və daxili düşmənlərdən qorumaqdan başlayaraq, bütün qüvvə və qabiliyyətini vətənin, xalqın mənafeyi uğrunda mübarizəyə həsr etməyə qədər inkişaf edib yüksəlir.

Tədbirdə çıxış edən gənclərin çağırışaqədərki hazırlıq rəhbəri İlham Əfəndiyev də müəyyən tarixi faktları sadalamaqla, xalqımızın qəhrəmanlıq salnaməsini qısa şəkildə şagirdlərin diqqətinə çatdırıb.

Mərkəzin şagirdləri tədbirdə vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər.

Çağırışçı Elcan Həmidov və Elnar Xəlilov tədbir iştirakçılarına Vətən qarşısında hərbi borclarını ləyaqətlə yerinə yetirəcəklərinə və valideynlərinin, müəllimlərinin üzünü ağ edəcəklərinə söz veriblər.

Sonda tədris mərkəzinin direktor müavini Reyhan Məmmədova gənclərə xeyir-dua verərək, onlara hərbi xidmət işində uğurlar arzulayıb.

**Carul BABAYEV,**
**mərkəzin idman rəhbəri.**